**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SƏNAN NADİR OĞLU ŞƏFİZADƏ**

# ELBƏY RZAQULİYEVİN YARADICILIĞI XX ƏSR AZƏRBAYCAN İNCƏSƏNƏTİ KONTEKSTİNDƏ

**İxtisas: 6215.01 – Təsviri sənət**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *Leyla Cəmil qızı Axundzadə*
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor

**Elmi məsləhətçi:** *Validə İmran qızı Məmmədova*
Əməkdar incəsənət xadimi,
Filologiya üzrə fəlsəfə doktoru, professor

**Rəsmi opponentlər:** *Səlhab İsa oğlu Məmmədov*
Xalq rəssamı, professor

*Xəzər Atif oğlu Zeynalov*
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Milli İncəsnət muzeyi**

Müdafiə “ **30** ” **sentyabr** **2013**-cü il tarixində saat **14.00** -da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdnindəki FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı, H.Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat “30 ” avqust 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.191 Daimi**
**Dissertasiya Şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Azərbaycanın Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (1926-2007) Azərbaycan təsviri və kino sənətinin korifeylərindən biri olmuşdur. Rəssamın parlaq sənəti xalq və dövlət tərəfindən layiqincə qiymətləndirilmiş və o, 1964-cü ildə Əməkdar rəssam, 1977-ci ildə Xalq rəssamı, 1986-cı ildə Dövlət mükafatı laureatı, 1998-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Elbəy Rzaquliyev yaradıcılığında XX əsr incəsənətinin aparıcı tendensiyaları öz əksini tapmışlar. XX yüzilliyin ortalarından başlayaraq həyat və zaman təsviri sənətin qarşısında böyük ictimai və siyasi əhəmiyyətli məsələlər qoyur. Yeni qabaqcıl ideyalar, yeni məzmun onları əks etdirməyə qadir olan yeni bədii forma, yeni təsvir vasitələri tələb edirdi.

Təsviri sənət üçün geniş meydan açıldı, yeni imkanlar yarandı, incəsənət geniş xalq kütlələrinin sənətinə çevrildi, onların arzu və istəklərini, həyat və məişətini əks etdirmək hüququ qazandı.

Müharibədən sonrakı dövrdə Azərbaycan rəssamlığında bütün janrlar – tematik tablo, portret, mənzərə, natürmort və s. müvəffəqiyyətlə inkişaf etməyə başladı. Mövzu və janr müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi rəssamlıq sənətimizi səciyyələndirən mühüm keyfiyyətlərdən birinə çevrilir.

Azərbaycanın 50-cı illərdən yaradıcılıq məkanında özünəməxsusluqu ilə seçilən məşhur rəssamlarından biri Elbəy Rzaquliyev haqda tədqiqat aparmaq tamamilə qanunauyğun olaraq, sənət naminə ədalətin bərpa olunmasına xidmət etmiş olardı.

Elbəy Rzaquliyev mədəniyyətimizin parlaq nümayəndələrindən biri olmaqla, onun şöhrətini artıran incəsənət xadimlərindən sayılır. Digər tərəfdən, sənətkarın orijinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəstixətti Azərbaycan incəsənətinin bədii arsenalını zənginləşdirmişdir. Məhz bu cəhətlərə görə müasir sənətşünaslıq elmində sənətkar yaradıcılığının monoqrafik tədqiqinə ehtiyac var.

İncəsənətdə şəxsi dəsti-xəttə malik olan sənətkar istedadlı kino rəssamı kimi də tanınıb. Uzun illər Azərbaycan incəsənətinə xidmət edən E.Rzaquliyevin yaradıcılığı indiyə qədər sistemli, geniş şəkildə araşdırılma-

yıb. Muzeylərdə, şəxsi kolleksiyalarda, qalereyalarda saxlanılan rəssamın əsərləri bədii özünəməxsusluq baxımından elmi təsvir və təhlil olunmayıb. Elbəy Rzaquliyev sənətinin elmi araşdırılması incəsənət tariximizi genişləndirməklə bərabər, müasir Azərbaycan rəssamlığına, eləcə də kino və dekorativ sənətlərin inkişafına təkan vermiş olacaq.

**Problemin tədqiq olunma dərəcəsi.** Deyildiyi kimi, Elbəy Rzaquliyev yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb edib. Rəssamın yaradıcılığına ilk sənətşünaslıq "reaksiyası" 1960-cı ildə nəşr olunmuş "Очерки изобразительного искусства Советского Азербайджана»[1] fundamental ümumiləşdirici tədqiqatda öz əksini tapmışdır. Rəssamın S.Salamzadə və T.Tokaryevlə birgə yaratdığı iri tarixi mövzulu tablo təhlil olunarkan, "kompozisiyada insan xarakterlərinin ziddiyəti obraz və bədii tipikləşdirmə vasitəsilə əldə olunmuşlar"[2] ifadəsi rəssamın hələ erkən yaradıcılıq metodunu müəyyənləşdirir.

Rəssamın hələ 50-ci illərdən dəzgah rəngkarlığına olan marağı 1970-ci ildə Moskvada nəşr olunmuş «Искусство Советского Азербайджана» oçerklər toplusunda əks olunmuşdur. "Kino sənətinin istedadlı rəssamlarından olan E.Rzaquliyevin dəzgah əsərlərindəki həyat müşahidələri onun kino yaradıcılığına müsbət təsir göstərir"[3] fikri rəssamın obrazlar mənbəyini müəyyən edir.

Elbəy Rzaquliyevin erkən yaradıcılıq dəsti-xəttinə münasibət Mürsəl Nəcəfovun "Azərbaycan SSR-nin incəsənəti"[4] adlı tədqiqatında öz əksini tapmışdır.

"70-ci illərdə rəssamın rəngkarlıq dəsti-xəttində müəyyən təkamül nəzərə çarpır. Rəssam daha dərin emosional ifadəni yeni bədii vasitələrlə əks etdirməyə və obrazın yaradılmasında mühüm cizgiləri seçmək bacarığı əldə olunur" müddəası görkəmli sənətşünas Nurəddin Həbibovun "Живопись Советского Азербайджана» tədqiqatında öz əksini tapır.[5]

---

[1] Очерки изобразительного искусства Советского Азербайджана. М.,1960, s 56

[2] Очерки изобразительного искусства Советского Азербайджана. М.,1960, s 59

[3] Искусство Советского Азербайджана. М., 1970, s 122

[4] Azərbaycan SSR-nin incəsənəti. "Bakı" qəzeti. B., 1972, IV sayı, s 5

[5] Габибов Н. Живопись Советского Азербайджана. Баку,1984, 78

Rəssamın rəngkarlıqda tarixi janra daima qayıtması fikri "Azərbaycan incəsənəti" [6] adlı ümumiləşdirici tədqiqatda vürğulanıb.

Belə ümümiləşdirici tədqiqatlarla bərabər Elbəy Rzaquliyev yaradıcılığının retrospektiv təhlili sənətşünas Mürsəl Nəcəfovun kiçik həcmli monoqrafik tədqiqatında yer almışdır.

Elbəy Rzaquliyev yaradıcılığının müxtəlif mərhələləri və sahələrinə çoxsaylı qəzet məqalələrində də rast gəlinir. Bu məqalələrdə rəssamın xarici səfərlərində yaratdığı əsərlər diqqət mərkəzində olmuşlar.

**Tədqiqatın məqsədi və əsas vəzifələri.** Azərbaycanın Xalq rəssamı Elbəy Rzaquliyev yaradıcılığını sistemli təhlil edərək, sənətkarın özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etməkdir. E.Rzaquliyevin yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirərkən, ona həmdövr olan Azərbaycan incəsənəti kontekstini təhlil etmək.

Başlıca məqsəd yaradıcılığının milli koloritə məxsus Azərbaycan dövrünü və xarici ölkələrə həsr etdiyi tabloları təhlil etmək, Elbəy Rzaquliyevin yaradıcılığına müasir dövrün prizmasından yanaşmaqdı.

E.Rzaquliyev yaradıcılığının həmdövr və müasir Azərbaycan incəsənəti kontektsində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Elbəy Rzaquliyevin indiyə qədər öyrənilməyən əsərlərini təhlil etmək;
- istedadlı kino rəssamı E.Rzaquliyevin tarixi və müasir mövzulara həsr olunan maraqlı tematik rəngkarlıq əsərlərini üzə çıxarmaq və onları qiymətləndirmək;
- rəssamın hazırladığı dekorasiyaların müasir kino sənəti baxımından araşdırmaq, kino və təsviri sənət sahəsindəki yaradıcılığının fərqli cəhətlərini müəyyən etmək;
- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Film Fondunda qorunan və hələ tədqiq olunmayan əsərlərini tədqiq etmək;
- Azərbaycan incəsənəti tarixinin uzaq və yaxın keçmişinə aid yeni faktik materialların aşkar etmək;

[6] Azərbaycan incəsənəti. B., 2002, s 96

- rəssamın yaradıcılıq kredosunu müəyyənləşdirməklə, E.Rzaquliyev yaradıcılığına qiymət vermək;

- E.Rzaquliyev yaradıcılığının müasir Azərbaycan sənətşünaslıq elmində yerini müəyyənləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Elbəy Rzaquliyevin müxtəlif rəngkarlıq, rəsm və kino əsərləri təşkil edir. Tədqiqatın obyektinin böyük qismini rəssamın geniş kütlələrə məlum olmayan əsərləri də təşkil edir. Rəssamın xüsusi və dövrü mətbuatda nəşr olunmuş əlyazmaları ilə bərabər, şəxsi kolleksiyalarda saxlanılan tabloları tədqiqat obyekti bazasını xeyli genişləndirmişlər. Ayrı-ayrı rəngkarlıq işləriylə bərabər rəssamın kinofilmlərdə quruluşçu rəssam qismində çıxış etdiyi filmlər tədqiqat obyekti olaraq təhlil olunmuşlar.

Tədqiqatın predmeti kimi 50-60-cı illərdə Azərbaycan rəssamlığının inkişaf təmayüllərini öyrənmək və E.Rzaquliyevin bu inkişafda rolunu və yerini araşdırmaq problemi çıxış edir. Rəssamın yaradıcılığındakı yeni tendensiyalar araşdırılıb və konkret nəzəri müddəalarla təsbit olunmuşlar. E.Rzaquliyev yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Metodoloji əsaslar kimi tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna üstünlük verilib. Dissertasiya üzərində iş zamanı bizim tərəfimizdən tədqiqatda kompleksli metoddan istifadə edilmisdir, yəni əyani material əhatəli şəkildə təhlil olunmuş, əsərlərin və dekorların işlənmə qaydası öyrənilmişdir. Əsas əsərlər təhlil edilmiş, imkan daxilində bütün öyrənilən tablolara yer ayrılmışdır. Əlavə olaraq, arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuat ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir. Qarşımıza qoyulan vəzifələrin əsaslandırılması və həllində bir sıra alimlərin, o cümlədən N.Həbibov, S.Gerasimov, K.Simonov, T.Kozintsev, S.Mixalkov və A.Zarxinin əsərlərindən istifadə edilib.

**Tədqiqatın hüdudları** Elbəy Rzaquliyev yaradıcılığının zaman və məkan çərçivələrindən irəli gəlir. Zaman çərçivələri XX əsrin ortalarından 2007-ci ilədək olan illəri, coğrafi çərçivələr isə rəssamın yaşadığı Azərbaycanı, təhsil aldığı Rusiyanı və yaradıcılıq ezamiyyətlərində olmuş ölkələri

əhatə edir.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, elmi araşdırmalar zamanı Elbəy Rzaquliyevin indiyə qədər tədqiq olunmamış rəngkarlıq və kino əsərləri təsvir və təhlil olunmuşlar.

Rəssamın ailəsinə, eləcə də dostlarına həsr etdiyi 30-a yaxın tablo, məişət mövzusunda təsvir olunan və rəssamın son dövr yaradıcılığını əhatə edən əsərlər sənətşünasların diqqətindən yayındığından, hal-hazırkı tədqiqatda öz əksini tapmışlar. Bu tədqiqatdan kənar qalmış əsərlərin üzə çıxarılması həm sənətşünaslıq elminə, həm də Azərbaycan incəsənətinin inkişafına müsbət mənada təsir edəcək.

Elmi işdə Azərbaycan incəsənətinin böyük dövrünü əhatə edən E. Rzaquliyevin yaradıcılığı əhatəli şəkildə araşdırılıb. Müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunan əsərlərin siyahısı hazırlanıb. Rəssamın şəxsi arxivində saxlanılan əlyazmaları, eskizləri və bəzi əsərlərin fotoları ilk dəfə bu elmi işdə mütəxəssislərin diqqətinə təqdim olunmuşlar.

E.Rzaquliyevin kino rəssamlığında böyük nəailiyyətləri nəzərə alınaraq bu sahəyə tədqiqatda xüsusi yer ayrılıb. Onun müxtəlif kinofilmlərdə quruluşçu-rəssam qismində iştirakı yaratdığı dekorasiyaların, kadr motivlərinin təhlil olunması sayəsində E.Rzaquliyevin kino sənətində özünəməxsus yaradıcılıq metodu üzə çıxarılmışdır. Rejissor ssenarisinin işlənib hazırlanması mərhələsində rəssamın fəaliyyətini əks etdirən pavilyon və natura dekorasiyalarının eskizləri ilk dəfə elmi şərh olunurlar. Dekorasiyasız natura obyektlərinin, eləcə də personajların və kostyumların eskizlərində novatorluq xüsusiyyətləri sübut olunmuşlar.

Sənətkarın Abşerona aid mənzərə əsərləri ilk dəfə olaraq geniş şəkildə təhlil olunmuşlar. Geniş kütləyə tanış olmayan bu əsərlər rəssamın yaradıcılığı haqqında təsəvvürləri xeyli genişləndirmişlər.

Elbəy Rzaquliyevin Yəməndə nəşr olunan 2 essesi ilk dəfə təhlil olunaraq, rəssamın dünyaya və sənətə baxış tərzini açmaq üçün mühüm material kimi təqdim olunmuşlar.

Rəssamın yarım əsrlik yaradıcılığı ayrı-ayrı mərhələlərə bölünərək onların inkişaf istiqamətləri və yaradıcı nailiyyətləri müəyyənləşdirilmişlər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənət tarixini genişləndirərək təsviri sənətin və kino sənətinin ümumi inkişafında Azərbaycan Xalq rəssamı Elbəy Rzaquliyev yaradıcılığının rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri incəsənətinin və kino sənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" və "Kino sənətində rəssamın rolu və yeri" mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilər. Rəssamın yaradıcılıq praktikasına aid müddəalar gənc kino-rəssamları üçün əməli tövsiyyələr rolunu oynaya bilərlər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 7 məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu** Girişdən, üç fəsildən, üç yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın mətninə aid illüstrasiyalar ayrıca albom şəklində dissertasiyaya əlavə olunmuşlar.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**"Elbəy Rzaquliyev yaradıcılığında Azərbaycan mövzusu"** adlanan və üç yarımfəsildən ibarət **I fəsildə** rəssamın həyatı və erkən yaradıcılığı geniş şəkildə əks olunub.

Fəslin girişində qeyd olunub ki, E.Rzaquliyev təsviri sənətə uşaqlıqdan maraq göstərib. Onun rəsmlərinə ilk diqqət yetirən və rəssamlıqla ciddi məşğul olmağı məsləhət görən yaxın qohumu, rəssam Əbdül Xalıq olub.

Böyüdüyü mühit onun istedadının üzə çıxmasına imkan yaradıb. Atası ilə bərabər ziyarətinə getdiyi qonşuluqda yaşayan istedadlı qrafik, rəngkar Əzim Əzimzadənin evindəki görüşlər də gələcəyin parlaq sənətkarına təsirsiz ötüşməyib.

Elbəy 11 yaşından birinci dəfə film çəkilişində iştirak edib. Rejissor H. Seyidzadənin filmində ona kiçik qardaş rolunu tapşırırlar, bacı rolunu isə məşhur aktrisa Leyla Bədirbəyli ifa edir. Məktəbdən qaçaraq səhər seanslarına gedən Elbəy, yeni filmlərin hamısına baxardı. Beləliklə, o, kino pərəstişkarı oldu. Ona görə də Ə.Əzimzadə adına Rəssamlıq məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra bu iki incəsənət istiqamətini birləşdirib kino rəssamı olmaq üçün Ümumittifaq Dövlət Kinematoqrafiya İnistitutuna daxil olması təəccüblü deyildi.

**"Elbəy Rzaquliyev yaradıcılığında Abşeron motivləri"** adlandırılan **birinci yarımfəsildə** rəssamın erkən yaradıcılığı barədə məlumat verilir. Elbəyin ilk tablolarında Bakı proletariatının inqlabi mübarizəsi, əmək fəaliyyəti ilə əlaqədar mövzular əsas yer tutur. Bakı neftçilərinin, Sumqayıt kimyaçılarının, (Şirvan) inşaatçılarının fədakar əməyi onu monumental əsərlər yaratmağa ruhlandırır. Üç hissəli "Əli-Bayramlı Dövlət Rayon elektrik stansiyası" (indiki Şirvan) adlı tablosu onun uğurlu əsərlərindəndir.

Abşeron mövzusunda çəkilən rəsm əsərlərində güclü müşahidəyə, həyat duyumuna, incə improvizə bacarığına malik rəssamla qarşılaşırıq. "Abşeronda", "Tut ağacı", "Abşeronda köhnə hamam", "Abşeron və abşeronlular" əsərləri bu baxımdan xüsusilə diqqətə layiqdi.

Bu əsərlər E.Rzaquliyevin Abşeron mövzusunda ardıcıl axtarışlarının bəhrəsidir. Abşeron silsiləsinə daxil olan əsərlər güclü realizmi, mətləb, məqsəd aydınlığı, insana, torpağa rəssam inamı ilə seçilir. "Abşeronda" tablosunda tamaşaçı bəşəri inamın şahidi olur. Əsərdə qumları daşınan, ekoloji tarazlığı pozulan sahillərin gileyi də yüksək cıxır, üsyan qaldırır. Yerin altından boylanan qayaların üsyankarlığı ön planda təsvir edilmiş halal zəhmət adamının işgüzarlığı, qətiyyəti ilə səsləşir, vəhdət təşkil edir. Zəhmət adamı qumluqda ağac əkir, torpağın bərəkətinə inanır. Əsərdə əsas ideya cərgə ilə əkilən körpə ağacların böyüyərək təbiətin nizamını, ahəngini pozanlara qarşı mübarizə aparmasından ibarətdir. Tablonun ümumi qayəsi,

rəng yorumu tamaşaçını bu istiqamətdə fikirləşməyə məcbur edir.

Elbəy Rzaquliyevin Abşeron silsiləsinə daxil olan əsərləri milli koloriti, lirik-psixoloji təsvir kamilliyi, nikbin ruhu ilə seçilir, yüksək sənət zirvəsinə qalxır. Bu əsərlərin spesifik sənətkarlıq xüsusiyyətlərindən danışarkən onların qədim miniatür sənətimizə bağlılığını yaddan çıxartmaq olmaz. E.Rzaquliyev tablolarında qüdrətli miniatürçü rəssamlarımızın yolunu davam etdirir. Mövzu və bədii ifasına görə həmin əsərlər bütun yaradıcılığı üçün səciyyəvi vahid ideyanı tamamlayır. Rəssam Abşeron torpağının sadə və sərt gözəlliyini, müasirlərimizin yaratmaq, qurmaq əzmini, təbiətin əzəli və əbədi şeriyyətini şöhrətləndirir. Bu silsilə tablolarda qarşımızda Xəzərin geniş üfüqləri, qumsal sahilləri, burada çalışan insanların nəcib əməlləri sanki tamaşaçı ilə dil açıb danışır. Suya həsrət çəkən torpağa fəhlə əməyi yeni həyat bəxş edir. Abşeron fəhlələrin surətlərində qürur, inam, şəxsi ləyaqət oxunur. Onlar təbiətə hakim kəsilmiş, nəhəng əmək inşaat maşınları, qurğuları ilə silahlanmış fədakar insanlardı. Təbiəti özünə ram edib qızılı qumlarda məskən salır, gələcək nəsillərə sevinc müjdəsi bəxş etmək arzusu ilə yaşayır.

Abşeron silsiləsinə aid əsərlərdə milli kolorit yaradan E.Rzaquliyevin öz dərin kökünə bağlılığı aydın sezilir. Yarımadanın istənilən fəsildə təbiətinə vurğun rəssamın böyük bir qisim əsərləri gözəl paytaxtımız Bakıyla bağlıdı. Sözsüz ki, Abşeronu sevən Bakını yaddan çıxara bilməz. Bakını ürəkdən sevən E.Rzaquliyev İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Sarayını müxtəlif tablolarda tarixin yaddaşına köçürülüb. Məşhur sənətşünas Q.Anisimov "Abşeronun canlı rəngləri" oçerkində Elbəy Rzaquliyevin yaradıcılığına da toxunub. Müəllif rəssamın əsərlərindəki koloritin ürəyin həyəcanı ilə əlaqələndirərək onun işlərini təhlil edib. "Rzaquliyev yaradıcılığında Abşeron motivləri ayrıca söhbətin mövzusudur. Elbəy dərin fikirləşməyi sevmir. Qədim torpaqdan ilham alan rəssam dərhal ideyalarını kətana köçürür. Onun işlərində kompozisiya və rəngin sintezi gözəl alınır. Bu vəhdətin sayəsində işləri həmkarlarından köklü surətdə fərqlənir. Mənzərəyə bir istiqamətdən baxmağı sevən rəssam çox vaxt fraqment işlərə müraciət edib".[7]

---

[7] Григорий *Анисимов. Живые краски Апшерона.* Б.,1978, s 79

Abşeron motivləri ilə bağlı Elbəy Rzaquliyevin əsərləri silsilə xarakteri daşıyır. Sənətşünaslar tərəfindən "Abşeron lövhələri" adlandırılan tabloların əsas cizgiləri – milli elementlər, Bakı və Abşerona xas kolorit və rəng ahəngidir.

**"E.Rzaquliyev yaradıcılığında əmək adamlarının obrazları"** adlanan ilk fəslin **ikinci yarımfəslində** Elbəyin əsərlərində sadə əmək adamlarına məhəbbət duyğuları aşılanıb. Onun yaratdığı "Neftçi" portreti müasir istehsalat qəhrəmanlarının mənəvi aləmini olduqca real boyalarla canlandırır. Qəhrəman neftçilərimizin ən nəcib xüsusiyyətlərini təmsil edən fəhlənin nurlu sifəti sadəliyi, səmimiliyi ilə tamaşaçını özünə cəlb edir. Bahadırları xatırladan bu əmək qəhrəmanı arxada görünən torpağın, dənizin, təbii sərvətlərin əsl sahibidir. Burada gördüyümüz mənzərə Elbəyin tablolarında tez-tez təkrar olunur. "Neftçinin" portretində müəllif arxa planı yüksək səviyyədə işləyib. Sarı tonlarla gözəl kontrast yaradan rəssam neft buruqlarının çoxluğu ilə ölkənin "qara qızıl" ehtiyyatlarının tükənməz olduğunu göstərmək istəyib. Neftçinin əlinin belində olması çox maraqlıdır. Əsərin baş qəhrəmanı sanki uzun müddət gördüyü işin nəticəsi barədə düşünür. Elbəy Rzaquliyev Abşeron camaatına xas mimikayla diqqəti cəlb edir. Neftçinin siması qızışmış, yorğun təsvir edilib. Zəhmətkeş obrazla rəssam böyük ideyanı ortaya qoyur. Hamıya məlumdur ki, Azərbaycan xalqı istənilən zaman neftçilərə böyük hörmət bəsləyib. Çətin və şərəfli peşənin sahibini E.Rzaquliyev olduğu kimi göstərə bilib. Yorğun, eyni zamanda işindən zövq alan neftçinin simasında azacıq gülüş hiss olunur. Bununla obrazın fəxrlə buruqlara arxalanaraq gələcəyə baxması göstərilib. Neftçinin tünd qara tonlarla təsviri, üstəlik geyiminin boz və qəhvəyi olmasına baxmayaraq, baş qəhrəman açıq fonda gözəl görsənir. Kompozisiyanın ağırlığı ön plana düşür. Sanki, neftçi gərgin iş vaxtından sonra istirahət etdiyi an göstərilib.

"Neftçilər" əsərini "Neftçi" portretinin davamı kimi qəbul etmək olar. Burada Elbəy Rzaquliyev daha murəkkəb kompozisiya yaradıb. Əsərin süjet xətti neftçilərin işinin çətinliyini göstərməkdir. Ön planda neftçilərdən biri nigaran şəkildə təsvir olunub. Müəllif iş prosesində onun əlinin zədələnməsini tamaşaçıya çatdırır. Baş barmağını ağ parçayla sıxan neftçi-

nin siması həm nigarandı, həm də qayğılı. Əlinin zədələnməsinə baxmayaraq, baş qəhrəman sankı başqa problem haqda düşünür. Rəssam ön plandakı neftçiylə əsəri 2 yerə bölmüş olur. Sol tərəfdə E.Rzaquliyev 2 neftçini iş zamanı çəkib. Onlardan biri iş görərkən, digəri həmkarlarından nəsə istəyir. Mürəkkəb kompozisiyada uzaqda neft buruğu göstərilib. Rəssam orada gərgin işin getdiyini dinamik hərəkətlə tamaşaçıya çatdırmağa çalışıb. Sağ tərəfdə orta planda neftçilər eskizə baxaraq işin hansı mərhələdə olmasıyla maraqlanır. Əsərdə rəssam həm böyük ölçülü obraz yarada bilib, həm kiçik. Həddən artıq böyük təsvirdə uzaqdakı kiçik fiqurların uyğunlaşması qeyd olunmalıdı. Tabloda ağ və qəhvəyi tonlardan istifadə olunub. Bütövlüklə açıq rənglərə üstünlük verən E.Rzaquliyev əsərdə dinamika yarada bilib. Tünd qəhvəyi və boz rənglər tamaşaçının ilk baxışda bütün diqqətini ön plandakı nefçilərə yönəldir. Bütün əsərin qəhvəyi və boz tonlarla işlənməsi tablonu al-əlvanlığdan məhrum etməyib. Neftçilərin qoruyucu dəbilqəsinin qırmızı rəngdə olması əsərdə canlanma yaradır. “Neftçilər” əsəri dövrün tələbatına da cavab verir. E.Rzaquliyevin işində əsas ideya ağır və şərəfli peşədə nefçilərə arxa olmaqdan ibarətdir. Tabloda rəng palitrasının Abşeron rəssamlıq məktəbinə xas xalçalarla tərənnüm olduğunu vurğulamaq vacibdi. Neftçilərin simasında cizgilər milliliyi diqtə edir. Yorğun gözlərin əl hərəkətiylə ahəng daşıması rəssamın iş prosesindən bir anı göstərməyə cəhd etməsindən irəli gəlir. Neftçi əməyinin şərəfli, əzabkeş və çətin olduğunu anlayan E. Rzaquliyev çalışqan insan xarakterini yüksək səviyyədə nümayiş etdirib. Həmin dövrlər neftçiləri bir çox rəssamlar öz əsərlərində təbliğ edirdi. Digər həmkarlardan fərqli olaraq E.Rzaquliyev onları qəhrəman kimi deyil, olduğu kimi təsvir edib. Yəni müəllifin fikrincə “qara qızıl”ı çıxaran insanlar real həyatda bir çoxlarına nümunə ola bilər, odur ki, onları ideala çevirmək lazım deyil. Bu insanları tabloda ideal cizgilərlə bəzəməyə ehtiyac yoxdur. Onların həyat tərzi çoxları üçün nümunədi. Neftçilər bu əsərdə dürüst və dəqiq şəkildə çalışan insanlar kimi təsvir olunub.

**“Rəssamın yaradıcılığında ədəbi obrazlar və natürmortlar”** adlı **üçünçü yarımfəsildə** rəssamın zəngin yaradıcılığında Azərbaycan ədəbiyyatı və incəsənətinin dahi şəxsləriylə bağlı əsərləri təhlil olunur. Belə

əsərlərə özünəməxsus şəkildə yanaşan müəllif bir tablo ilə həmin insanın bütün yaradıcılığını işıqlandırıb. Belə işlərdən biri "Mirzə Ələkbər Sabir" adlanır. Satirik şair mərkəzdə böyük ölçüdə təsvir olunub. Sabir tamaşaçıya nigaran baxışlarla baxır. Onun əl hərəkətlərindən həyəcanlı olduğunu sezmək olar. Sabir digər şəkillərdə olduğu kimi özünəməxsus ziyalı libasındadır. Ağ köynək, tünd qara palto, başında isə buxara papaq var. Ağ fonda rəssam satirik şairin yaradıcılığına nəzər yetirməyə imkan verir. Onun müxtəlif şerlərində və yazılarında tənqid olunan avam kəndli, din pərdəsi altında gizlənən yalançılar tablonun fonunda göstərilir. Uzaqda polis, orta planda kəndli, qoca, satıcını görmək olar. İçkili zadəgan nökərinə əmr edir, dinlə məşğul olanlar məşvərət keçirir. Hər bir obraz xüsusi geyimdə və hərəkətdə təqdim olunub. Polis kənardan hadisələrin inkişafını seyr edir. Qoca kəndli pul qazanmaq barədə düşünür. Satıcı malını bazara aparır. Obrazların fonunda Mirzə Ələkbər Sabir sanki xalqa müraciət edərək ətrafdakılara baxaraq nəticə çıxarmağı məsləhət görür.

**"Elbəy Rzaquliyevin kino yaradıcılığı"** adlanan **II fəsildə** rəssam Azərbaycan incəsənətinin uğurlu kino rəssamlarımndan biri kimi təqdim olunur. Xüsusi ilə vurğulanır ki, 50-ci illərdə "Bir məhəlləli iki oğlan", "Möcüzələr adası", "Doğma xalqa" və başqa filmlərin çəkilişində iştirak edən müəllif Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bədii film üzrə quruluşçu rəssam kimi bitirən ilk azərbaycanlıdır. Bir kino rəssamı kimi Elbəy Rzaquliyev sonralar məhsuldar işləyir. "Qara daşlar", "Ögey ana", "Telefonçu qız", "Arşın mal alan" (son variantı), "Sevil" və s. Filmlərə bədii tərtibat verir. Rzaquliyev filmlərdə cərəyan edən hadisələri təxəyyülündə canlandırır, kino kadrlarının məzmunundan doğan təsvir vasitələri axtarır. O, filmlərin tərtibatında təbii mənzərələrdən istifadə edir. Həyat həqiqətlərinə sadiq olan rəssam dekorasiyalarda, geyim eskizlərində və rekvizitdə dövrün ruhunu, personajların xarakterini inandırıcı şəkildə göstərməyə nail olub. "Arşın mal alan" və "Sevil" filmlərinə baxan tamaşaçı uzun müddət rəssam əməyinin bəhrəsini unutmur. Həmin səhnələrin, məkan və mənzərə eskizlərinin çəkilişinə E.Rzaquliyev aylarla vaxt sərf edir, amma istədiyi nəticəni əldə edir.

Vahid bir ideya arxasınca gedən kollektivdə çıxış edərkən rəssamın

yaradıcılığı bütün yaradıcı kollektivin tərkib hissəsindən biri olur. Burada söhbət yalnız kadrda olan dekorasiyadan və ya geyimdən, hər hansı bir aktyorun qrimindən və ya rejissor ilə birlikdə seçilən naturadan getmir. Bunlar hamısı kollektivin birgə əməyinin nəticəsidir. E.Rzaquliyev hər bir filmdən əvvəl rejissorla, aktyorla, operator və bəstəkarla kompozisiya üzərində axtarışlar aparıb. Rzaquliyev yaxşı başa düşür ki, məhz rəssam tərəfindən məkanın uğurlu şəkildə həll olunması bütün təfsilatları ilə inandırıcı səhnə şəraiti yaradılmasına xidmət edir. Əlbəttə ki, bu məsələ rəssam tərəfindən səhnə kollektivinin birgə yaradıcılıq cəhdləri ilə uğurlu həll oluna bilər. 80-ci illərdə kino rəssamı kimi böyük populyarlıq qazanan E.Rzaquliyev bədii filmdə fırça ustasının işi barədə qəzetlərdən birinə müsahibəsində deyib: “Kino sənəti qeyri-adi gücə malik olan sənət növüdür. Çünki, bu sənət kinematoqraf süjetinin xəyalən düşünülmüş olan, lakin həyat həqiqətlərinə bənzəyən hadisələrə tamaşaçını inanmağa sövq edir. Bu hal əsasən filmə baxış prosesində yaranır. Tamaşaçı əsərin yaradıcılarını unudaraq ekrandakı hadisələri həyatın bilavasitə faktı kimi qəbul edir. Burada ən böyük rolu qəhrəmanın çıxış etdiyi mühitin real həqiqiliyə bənzəməsi faktı oynayır”.[8]

E.Rzaquliyevin filmlərində dekorasiya yaradılması prosesində rəssamın işi natura epizodları üzərindəki iş ilə uyğun gəlir. Bu işdə o, öz təsviri-dekorativ stilistikanın vəhdətini qoruyub saxlayır. Təbiət obyektlərinin dekor obyektləri ilə dəyişdirilməsi prosesində səhnələrin şərtiliyi pozulmur. Demək olar ki, çox vaxt çəkilişə görə seçilən təbiət mənzərəsi dekorasiyanın qurulması üçün müvafiq məkan hesab edilir. Bəzən bu mürəkkəb bir dekorasiya kompleksi, bəzən də kiçik dekorasiya detalı olur. Lakin hər iki halda bu dekorasiyalar naturanın – yəni təbii mühitin tamamlayıcısı rolunda çıxış edir.

Elbəy Rzaquliyev bütün bunları elə ustalıqla həyata keçirir ki, tamaşaçıda hətta cüzi şübhə belə yaranmır və tamaşaçı hiss edə bilmir ki, burada rəssamın əli nəyi isə yaradıb. Rəssam bu işdə tamaşaçını inandırmağa, onun

---

[8] Молодёжь Азербайджана. Б.,1976, II, s 5

məharətlə əlavə etdiyi süni səhnələrin seyrinə həyəcanlandırmağa vadar edir. Bu həm də rəssamın eskizləri əsasında həyata keçirilən, quraşdırılmış səhnə kadrlarının yaradılmasına aiddir. Bütün filmin materialı ilə birgə rəssamın vahid əməyi tamaşaçıya kombinasiya edilmiş çəkilişlərin real hadisələr kimi qəbul olunmasına imkan yaradır. E.Rzaquliyev peşəkarlıq sayəsində ekrandan qəhrəmanın kostyum və qriminin təbii görünməsinə nail olur. Filmdə nümayiş olunan və müasir dövrümüzdə hazırlanan, lakin tarixi dövr elementlərinə bənzədilən dekorasiya əşyaları: mebel, rekvizit, silah və s. saxta əşyalar kimi görünmür. Çünki, bunlar rəssamın hazırladığı eskizlər əsasında böyük dəqiqliklə, incəliklə və ustalıqla yerinə yetirilir və keçmiş dövrə aiddiyatı olan əşyalardan fərqlənmir.

Səhnəni, epizodu yaradan E.Rzaquliyev üçün bu fakt təkcə tarixi dövr əşyalarının “canlandırılması” prosesi ilə bitmir. Çünki, rəssam üçün ən başlıca məsələ hər hansı bir qəhrəmanın həyat obrazı, xarakteri və konkret dövrü ilə sıx bağlı olan bir məkanın təkrarən canlandırılmasıdır. Məsələn, bir filmdə iki müxtəlif evlərdə yerləşdirilən mebel təkrarlanmamalı idi. Kino rəssamının filmdə olan fəaliyyəti ifaçı dekorator tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilirsə, bu iş ekrandan həyatda olduğu kimi və ya tamaşaçının real qəbul etməsinə yardımçı olur.

Elbəy Rzaquliyev pavilyon çəkilişlərində də böyük ustalıq nümayiş etdirir. Əgər süjet studiyada yaradılmış pavilyon şəraitində çəkilərsə, əvvəldən sona kimi hər bir şey pavilyonda yaradılır. Bu halda E.Rzaquliyev tamaşaçını təsvirin təbiiliyinə, həqiqiliyinə inandırır və hətta pavilyonda yaradılan mənzərə təbiətin bir guşəsi kimi qəbul edilir. Rəssam bu təsviri prosesin gedişini çox incəliklə və diqqətlə izləyir.

Qısa zaman kəsiyində E.Rzaquliyev ölkənin aparıcı kino rəssamına çevrilir. Hər zaman yeni eskizlər yaradan sənətkar dekora, geyimlərin tərtibatına, rəng koloritinə böyük diqqət yetirir. Çəkiliş qrupuyla rayonlara səfərə çıxan rəssam təbiətin qoynunda işləməkdən zövq alır. Əsas eskizlərini məhz naturadan çəkən Rzaquliyev işlərində xarakter göstərməyi bacarıb. Rəssam-təlimatçı E.Rzaquliyev pavilyonlarda dekorasiyanın dəqiq cizgilərini taparaq, eləcə də geyimlərdə dövrün və insanların ruhunu tərənnüm edərək işinin öhdəsindən böyük məharətlə gəlib. Lazımi tərtibatı

lakonik və şərti üsullarla göstərən müəllif rəngarəngliyi yaddan çıxartmır.

Çəkilişdən əvvəl təsvirçilik, onun doğuracağı bədiilik miqyası öncədən rəssam tərəfindən müəyyənləşdirilir. Tamaşaçı ekran təsvirini əsas olaraq rəssamın yaratdığı incəsənət obrazı kimi yox, çəkilişdə əvvəldən nəzərdə tutulmuş olan faktiki obraz kimi qəbul edir.

Elbəy Rzaquliyevin ən böyük işləri arasında "Azərbaycanfilm" studiyasında lentə alınan "Arşın mal alan" kinokomediyası və "Sevil" operasının xüsusi yeri var. Hamıya məlumdur ki, "Arşın mal alan" 3 dəfə müxtəlif şəraitdə çəkilib. 1917-ci ildə "səssiz film" vaxtı çəkilən kinokomediya sonralar 1945 və 1968-ci illərdə yeni versiyada ekranlaşdırılıb. Filmin son variantında işləyən Rzaquliyev böyük problemləri həll etməyə məcbur olur. Dövrün tələblərinə cavab verən rəngli formatda çəkiləcək filmə yadda qalan səhnələr və mənzərələrin hazırlanması vacib şərt kimi irəli sürülür. Axtarışa çıxan Rzaquliyev Bakının köhnə məhəllələrində, Abşeronun gözəl məkanlarında "canlı dekorasiya"lar tapır, onların studiyanın pavilyonuna uyğunluğunu yoxlayır. Ölkənin bir sıra rayonlarında olan rəssam qərarını gözəl təbiətə malik Göy-Göldə saxlayır. Nəticədə gözəl eskizlər yaradan E.Rzaquliyev filmin yüksək səviyyədə ekranlaşdırılmasında pay sahibi olur. Filmdəki hadisələr XX əsrin əvvəllərinə aid olduğundan Rzaquliyev həmin dövrə xas ab-hava yaratmağa çalışır və istəyinə nail olur. Film üçün çəkilən eskizlər təsviri sənətin gözəl nümunələri sırasına aid olunub. Buna görə də Rzaquliyevin filmə aid çəkdiyi eskizlər müxtəlif vaxtlarda ayrı-ayrı sərgilərdə uğurla nümayiş olunub. Dekorasiyaların formalarında optimizm, geyimlərin tərtibatında isə millilik və koloritlik tərənnüm olunur.

"Sevil" operasında isə dərin sosial məna göstərilməli idi. Əsərin əsas ideyası qadının cəmiyyətdə rolunun vacibliyi və zərif cinsin nümayəndələrinə qoyulan qadağalarla bağlıdı. Dramatik səhnələrdə dekor və geyimlər lirik hisslərdən kənar olmalıydı. Əvvəlcə filmin ssenarisiylə tanış olan müəllif, bir aylıq hazırlıqdan sonra eyni adlı silsilə əsərlər yaratmaq fikrinə gəlir. Temperayla əsərlər yaradan Rzaquliyev dinamik səhnələrdə sərt kolorit göstərir. Məhz, bu tablolar filmin yaradıcı heyəti tərəfindən istifadə olunur. Filmdə musiqi fasilələri zamanı eləcə də bəzi epizodlarda rəssamın işləri həlledici rol oynayır.

**"E.Rzaquliyev yaradıcılığında xarici ölkələr"** adlanan **üçüncü fəsildə** rəssamın xarici ölkələrə səfərlərinin yaradıcı fikrinə təsirindən danışılır. İlk dəfə o, sovet mədəniyyətinin S.Gerasimov, K.Simonov, T.Kozintsev, S.Mixalkov və A.Zarxi kimi nəhənglərlə bərabər nümayəndə heyəti tərkibində, 1958-ci ildə Meksikaya getmişdi. Sonralar S.Gerasimov bütün səyahət boyu Elbəyin hamının təəccübünə səbəb olan əzmlə yüzlərlə rəsm, sulu boya və etüd çəkdiyini deyib. Yorulmadan çalışan Elbəy həyatı boyu 30-dan çox ölkədə olub. Maraqlıdır ki, həmin ölkələrin incəsənətiylə maraqlanan rəssam öz fərdi manerasını itirməyib. Bütün əsərlərində milli koloritə sadiq olan E. Rzaquliyevin 1959-cu ildə Moskvada "Meksikada" adlı fərdi sərgisi açıldı. Rusiya tənqidçilərinin müsbət rəyini qazanan E.Rzaquliyev sərgi haqqında deyirdi: "Məni Meksikanın təsviri sənəti həyəcanlandırırdı. Oroskonun, Dieqo Riveyranın möhtəşəm freskaları ilə, gözəl insan və böyük rəssam David Alfaro Sikeyrosla tanışlıq heç vaxt yaddan çıxmayacaq. Əsərlərdə Meksika incəsənətini göstərməyə çalışmışam. Nə qədər alınıb, deyə bilmərəm".[9]

Elbəy Rzaquliyevin "Meksika" silsiləsindən "Meksikalı qızlar" əsəri orijinal kompozisiya həllinə görə maraqlıdır. Rəssam bu tabloda yaradıcılığı üçün yeni olan narıncı kolorit yaradıb. Meksika təbiətinə məxsus ağaclar – palmalar narıncı rənglə sintezlə xüsusi təm-taraqlığa səbəb olur. Əsərin əsas hissəsini 2 qızın portreti tutur. E.Rzaquliyev qızlardan birini tamaşaçıya baxan tərzdə, digərini yan tərəfdən təsvir edib. Qarabuğdayı qızlar Meksika xanımlarına məxsus göz, qaş, burunla göstərilib. Meksikada olduğu 2 ay ərzində rəssamın yerli əhalinin bütün xüsusiyyətlərini öyrəndiyi məlum olur. Saç düzümü, bər-bəzəklər, boyunbağı Meksika incəsənətinin nümunələri kimi təqdim olunub. Digər xanımın cizgisində də yerli kolorit hiss olunur. "Meksikalı qızlar" əsərində E.Rzaquliyev yerli xanımlar dəqiqliklə təsvir edə bilib. Eyni zamanda meksikalıların cizgiləri, bəzənmək adəti, geyimi haqda azacıqda olsa məlumat almaq olur. Amma Rzaquliyevin tablosunda kiçik mənfi cəhəti də qeyd etməmək olmur. Xanım-

---

[9] Мурсал Наджафов. «Эльбек Рзакулиев» М., 1982, s 67

ların sifəti donmuş halda görünür. Heç bir mimikadan, mənalı baxışdan əsər-əlamət yoxdur. Sanki, Rzaquliyev tablonun hazırlanmasında tələskənliyə yol verilib. Çünki, meksikalı xanımların mənasız baxışları rəssamın əsəri məcburi şəkildə çəkdiyi anlamına gələ bilər. Doğurdan da, mənasız baxışlar əsərin kompozisiyasına təsirsiz ötüşmür. Dekorativ cəhətdən tablo baxımlı alınsa da, rəssamın ideyası başa düşülən deyil.

Elbəy Rzaquliyev Meksika səyahəti zamanı çoxlu əsərlər yaranıb. Rəssam tablolarında daha çox yerli əhalinin məşğuliyyəti, maraqları və xüsusiyyətlərini canlandırıb. Meksika mədəniyyətinə geniş yer ayıran E.Rzaquliyev orada da milli incəsənətin inkişafıyla maraqlanıb. Müxtəlif əsərlərdə Meksikanın ayrı-ayrı geyim növlərinə də rast gəkmək olar. Ən xırda detalı belə diqqətdə saxlayan E.Rzaquliyev sonrakı əsərlərində Meksika təbiətinə də yer ayırır. Sanki, rəssam meksikalıları başa düşməyə başlayır. Çünki, səfərin son tabloları maraqlı obrazlarla zəngindi. Meksikalıların qəlbinə daxil olan E.Rzaquliyev onların çılğınlığını, emosionallığını canlandıra bilib.

Meksika tabloları səmimiyyəti və yaradıcı baxışı ilə diqqəti cəlb edir. Rəssamın çəkdiyi təbiət görüntülərinə laqeyd olmaması, insan obrazlarını xüsusi heyranlıqla kətana köçürməsi maraqla izlənilir. Təbiət mənzərələrindən aydın olur ki, Meksika rəssamı valeh edib. Çünki, mənzərələr Elbəyin məhəbbəti ilə çəkilib, tamaşaçılar da bu hissə qapılır. Əsərlərində E.Rzaquliyev təbiətə vurğunluq hissini, kolorit, rəng çalarlarıyla başqalarını çatdırır. Digər xalqların mədəniyyətini öyrənən E.Rzaquliyev onların həyatının milli rəngarəngliyini göstərir.

1960-cı ildə çəkilən "Meksikalı qız" qrafik əsəri qısa zamanda hazırlanıb. Cavan qız arxa tərəfdən göstərilib. Uzun saçları olan meksikalının sağ əli çənəsinə tərəf yönəlir. Rəssam qızı fikirləşdiyi zaman tabloya köçürüb. Burada əsas məqsəd tez bir zamanda cızmaqara etmək olub. Rzaquliyev qızın sifətini göstərməyib. Sadəcə səmanı tünd qırmızı rəngdə təqdim etməklə onun meksikalı olmasına işarə edib. Təsvirdə rəngin hegemonluğu rəssamın ideyasını az da olsa açmağa çalışır. Əl və ayaqların tünd qara rəngdə təqdimatı yerli əhalinin əksər hallarda qara dərili olmasıyla əlaqədardı. Meksika silsiləsinə aid "Meksikalı qız" qrafik əsəri təbii çalarla

yadda qalır. Qeyri-adi süjet xətti və ya kompozisiya olmasa da, rəssam əsərdə ürəklə işləməklə duyğusal elementlər yaradıb.

Bütövlükdə demək olar ki, məhsuldar yaradıcılıq fəaliyyəti nəticəsində Azərbaycanın xalq rəssamı E.Rzaquliyev milli mədəniyyət tariximizdə şərəfli yerlərdən birini tutmağa layiq sənətkardır. Hansı mövzuda işləməsindən asılı olmayaraq Elbəy Rzaquliyev sənətdə öz fərqli dəsti-xəttini, fərqli düşüncə tərzini qoruyub saxlamağa nail olmuşdur.

Dissertasiyanın "Nəticə" hissəsində rəssamın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir. Onlardan bəlli olur ki:

1. O tarixi və müasir mövzularda ardıcıllıq prinsipinə üstünlük verir. Tarixi mövzulara silsilə əsərlər həsr edir və bir qayda olaraq sonda qarşıya qoyulan problemin həllinə nail olur;

2. Dövlət Film Fondunda qorunan işlərin əksəriyyəti ilk dəfə olaraq tədqiq olunur. Əvvəllər onların diqqətdən kənarda qalması Rzaquliyev yaradıcılığını tam şəkildə öyrənməyə imkan vermirdi;

3. Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bədii film üzrə quruluşçu rəssam kimi bitirən ilk azərbaycanlı Elbəy Rzaquliyev bir sıra yeniliklərə imza atır. Filmlərin dekorunun işlənilməsi zamanı pavilyondan az istifadəyə üstünlük verir. Daha çox açıq havada çəkilişlərin aparılmasının tərəfdarı olur;

4. Elbəy Rzaquliyev yaradıcılığının geniş öyrənilməsi XX əsr Azərbaycan incəsənətinin kontekstində araşdırılmasına şərait yaradır.

5. Elbəy Rzaquliyev yaradıcılığının tədqiq olunması müasir Azərbaycan sənətşünaslığında kino yaradıcılığı ilə rəngkarlığın özünəməxsus sintezi üsullarını ortaya çıxarmağa imkanlar vermişdir.

## DİSSERTASİYA MÖVZUSU ÜZRƏ ÇAP OLUNMUŞ ELMİ ƏSƏRLƏRİN SİYAHISI


1. Azərbaycan incəsənətində Abşeron lövhələri // "İncəsənət və mədəniyyət problemləri", №3-4 (25-26), Bakı, 2008, s.252-257.
2. Azərbaycan incəsənətində Elbəy Rzaquliyev sənəti // "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri", № 1-2, Bakı, 2009, s.96-105.
3. Elbəy Rzaquliyev: rəssam və dekorator// "Mədəniyyət dünyası" XVII buraxılış (elmi-nəzəri məcmuə). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2009, s.246-251.
4. Elbəy Rzaquliyev yaradıcılığı // "İncəsənət və mədəniyyət problemləri", №3 (29), Bakı, 2009, s.145-149.
5. Elbəy Rzaquliyev yaradıcılığınln müasir Azərbaycan incəsənətinə təsiri // "Mədəniyyət: problemlər və perspektivlər". Aspirant və gənc tədqiqatçıların III Respublika Elmi Konfransı. Bakı, 2009, s.24-29.
6. XX əsr Azərbaycan incəsənətində Elbəy Rzaquliyev yaradıcılığının yeri və rolu // "Qarapapaqlar" jurnalı. Gürcüstan, Marneuli, 2009, iyun, №6 (24), s.47-53.
7. Жизнь и творчество Эльбека Рзакулиева // "Культура народов Причерноморья". Крымский научный центр национальной Аккадемии наук Украины, №173, 2009, с 56-61

*Санан Надир оглы Шафизаде*

# ТВОРЧЕСТВО ЭЛЬБЕКА РЗАКУЛИЕВА В КОНТЕКСТЕ ИСКУССТВА АЗЕРБАЙДЖАНА XX ВЕКА

## Р Е З Ю М Е

Диссертация посвящена научному исследованию творчества одного из ярчайших представителей азербайджанского изобразительного искусства Эльбек Рзакулиева. Исследование состоит из введения, трех глав, трех подглав, заключения, списка использованной литературы и иллюстративного альбома.

**Во введении** определяются актуальность проблемы, степень изученности темы, цель и задачи, объект и предмет, методологическая база исследования, обосновываются границы, научная новизна и практическое значение исследования. Даются сведения об апробации, структуре и объеме работы.

**В I главе – «Тема Азербайджана в творчестве Эльбея Рзакулиева»**, состоящей из трех подглав, широко освещена жизнь и ранее творчество художника, характеризующееся отображением апшеронских мотивов, портретов людей труда и художественных образов, а также натюрмортов.

**Во II главе – «Творчество Эльбея Рзакулиева в кино»**, художник представлен как один из самых успешных кино художников азербайджанского искусства. Особенно подчеркивается, что принявший участие в съемках таких картин, как «Два парня с одного двора», «Остров чудес», «Родному народу» Эльбей Рзагулиев стал первым азербайджанцем, который окончил Всесоюзный Государственный институт кинематографии по специальности художник-постановщик художественных фильмов.

**В III главе – «Зарубежные страны в творчестве Эльбея Рзагулиева»**, говорится о влиянии поездок художника заграницу. За время жизни Эльбей Рзагулиев побывал более чем в 30 странах. Примечательно, что знакомясь с особенностями творчества этих стран, он не терял свою манеру художника.

**В заключении** диссертации подытоживается разностороннее творчество и приводятся основные результаты исследования.

***Sanan Nadir Şhafizadeh***

# CREATION OF ELBEK RZAKULIYEV IN THE CONTEXT OF AZERBAIJAN IN XX CENTURY

## S U M M A R Y

The dissertation is devoted to revealing Elbey Rzaguliyev is one of the striking representatives of our culture, and he is considered cultural worker who increased glory of art.

**Preamble** substantiates the actuality of chosen topic, shows how studied the work is, sets forth goals and main objectives of the research, emphasizes the subject matters as well as the methodology of studies, highlights the scope and novelty of the research and explains practical value of the thesis.

**Chapter I – "The subject of Azerbaijan on Elbey Rzaguliyev's creation"** consisting of three half chapter have been widely recognized the artist's life and early activities. Characterizing as images of Absheron, portrets of people of labour and art and also naturemorts.

**Chapter II –"Elbey Rzaguliyev's cinematographic activities"** is introduced as one of the most successful artists of Azerbaijan cinematographic art. In particular it was noted that, in 50 years, the author participating in the shooting "Two boys from the same block", "The island of Miracles", "Native people" and other films, is first Azerbaijani graduated All-Union State Institute of Cinematographic as a stage manager artist on feature film.

**Chapter III – "The foreign countries on the E.Rzaguliyev's creation"** is talking about the influence of the creative view of the artist's visits to foreign countries. Elbey working tirelessly throughout his life has been more than 30 countries. It is interesting that, the artist interested in the arts of these countries didn't lose own personal manner.

**On the "Conclusion"** part of dissertation, sculptor's many-branched creation is summarized and the main results of the study are shown.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**
**АЗЕРБАЙДЖАНА**

*На правах рукописи*

**САНАН НАДИР оглы ШАФИЗАДЕ**

# ТВОРЧЕСТВО ЭЛЬБЕКА РЗАКУЛИЕВА В КОНТЕКСТЕ ИСКУССТВА АЗЕРБАЙДЖАНА XX ВЕКА

**Специальность:** 6215.01 – Изобразительное искусство

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ – 2013**